**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**XƏYALƏ ARİF QIZI MƏMMƏDOVA**

# AZƏRBAYCAN RESPUBLİKASINDA ÜMUMİ TƏHSİLİN MODERN İNKİŞAFI (1991-2011-CI ILLƏR)

**5804.01-Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi**

**Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

## A V T O R E F E R A T I

**BAKI – 2017**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin (Azərbaycan Müəllimlər İnstitutu) Pedaqogika kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər**: **Əjdər Əbdülhüseyn oğlu Ağayev**
*pedaqogika üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər**: **Mübariz Mirəziz oğlu Əmirov**
*pedaqogika üzrə elmlər doktoru, professor*

**İlham Ağaqardaş oğlu Cavadov**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Aparıcı təşkilat: Azərbaycan Dillər Universitetinin Pedaqogika kafedrası**

Müdafiə «31» oktyabr 2017-ci il tarixdə saat $14^{00}$-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 02.061 Dissertasiya Şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.

**Ünvan:** Az-1000, Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi, 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformasiya Mərkəzində tanış olmaq mümkündür.

Avtoreferat «____» ___________ 2017-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının**
**elmi katibi** **Rövşən Zülfüqar oğlu Hümbətəliyev**
**riyaziyyat üzrə elmlər doktoru, dosent**

## TƏDQİQAT İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı:** XX əsrin sonlarında meydana çıxan yeniləşmələr təhsil sahəsində də özünü göstərdi.

XXI əsr öz gəlişi ilə sürətli inkişaf dinamikasını meydana qoydu. Dünyada baş verən siyası, iqtisadi, texniki yeniləşmələr XXI əsr təhsilini də yeni müstəviyə qaldırdı.

XXI əsrin astanasında Azərbaycan Respublikası müstəqil dövlət olaraq meydana çıxdı, müstəqil, suveren dövlətçilik siyasəti ilə bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də modern inkişaf yoluna düşdü.

Müstəqillik illərində Azərbaycan Respublikası bütün sahələrdə sürətlə inkişaf edərək, dünyanın qabaqcıl ölkələrindən birinə çevrilmişdir.

Bildiyimiz kimi, ayrılıqda götürüldükdə, təhsil sahəsi olduqca geniş məzmun və istiqamət təşkil edir. Bizim bu tədqiqatda araşdıracağımız məsələlər ümumi təhsilin müasirləşməsi, modern inkişaf xüsusiyyətlərini əhatə edəcəkdir.

Bəlli olduğu kimi, Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra – 1990-cı illərdə müəyyən çətinliklərlə qarşılaşdı. Erməni işğalçılarının Qarabağa və onun ətrafındakı rayonlara basqını ağır nəticələr versə də, ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində atəşkəsə nail olundu. Ölkədə stabil inkişaf ənənəsi yarandı.

Təhsilin normal inkişaf məcrasına düşməsinə qədər gedən uzun yolda xeyli işlər həyata keçirildi. 1992-ci ildə Milli Məclis tərəfindən qəbul edilən Təhsil haqqında Qanun cəmiyyətdəki yenilikləri, iqtisadi münasibətlərdəki dəyişiklikləri nəzərə alaraq, ümumi təhsilin təşkili və həyata keçirilməsinin hüquqi əsaslarını müəyyənləşdirdi. Belə ki, dövlət məktəbləri ilə yanaşı özəl məktəblər, ödənişsiz təhsillə yanaşı, ödənişli təhsil tətbiq olunmağa başladı. Təhsildəki yeniliklər bütün təhsil sistemini əhatə etsə də, diqqət mərkəzində ümumi təhsilin müasir tələblər səviyyəsində qurulması dayanırdı. Ümumi təhsilin inkişafı müəyyən mərhələləri əhatə edərək, modernləşmə səviyyəsinə gəlib çatdı. 1991-ci ildən başlanan yeniləşmə bəzi yenilikləri gətirsə də, 1993-cü ildə Ulu öndər Heydər Əliyevin dövlətə rəhbərliyə başlaması ilə yeni mərhələ yarandı. 1993-1998-ci illərdə əsasən ümumi təhsilin təşkili, milliləşdirilməsi, ehtiyac olan kadrlarla təminatı ənənəyə əsaslanmaqla həyata keçirildi. 1998-ci ildən başlanan yeni mərhələ ölkə başçısının təhsil islahatı ideyasının həyata keçirilməsi ilə reallaşdı. 1999-cu ildən təhsil islahatı proqramı müxtəlif istiqamətlərdə tətbiqini tapdı. Təhsilin məzmunu, təlim metod və texnologiyaları, xarici təcrübənin öyrənilməsi, milli kadr hazırlığı və digər problem məsələlər həll edildi.

2003-cü ildən başlanan yeni mərhələdə əvvəlki mərhələdə görülən işlər daha zəngin məzmunda və istiqamətlərdə həyata keçirildi. Belə ki, prezident İlham Əliyevin sərəncamları ilə müxtəlif inkişaf proqramları meydana çıxdı. O proqramlara əsasən yeni məktəblər tikildi, ciddi təmir işləri aparıldı, Dünya Bankının və digər beynəlxalq təşkilatların layihələri üzrə ümumi təhsilin sosial, iqtisadi, pedaqoji-metodik komponentləri üzrə ciddi işlər görüldü. Məktəb kitabxanaları latın qrafikalı ədəbiyyatla, məktəblər müasir təlim texnologiyaları ilə təmin edildi, İKT-dən istifadə geniş tətbiq olunmağa başladı. Kurikulum sənədlər toplusu hazırlandıqdan sonra yeni proqram və dərsliklər yeni təlim metodları və texnologiyaları vasitəsilə reallaşdırıldı.

Ümumiyyətlə, Azərbaycan Respublikasında ümumi təhsilin modern inkişafı öz bəhrələrini verməyə başladı. Dünya təhsil təcrübəsi ilə inteqrasiyalar onu daha da genişləndirdi.

Artıq bu dövrdə həyata keçirilən tədbirlər öz nəticələrini vermişdir. Müstəqillik illərində Azərbaycanda təhsilin, təlim-tərbiyə işinin müxtəlif problemlərini əhatə edən tədqiqat işləri yazılmışdır və bu istiqamətdə araşdırmalar davam etdirilir.

Qeyd etməliyik ki, aparılan tədqiqatlar ümumi təhsilin kompleks inkişafını deyil, konkret olaraq, ayrı-ayrılıqda götürülən problemi əhatə edir. Bu tədqiqatlardan M.Ə.Zamanovanın "Müasir dövrdə Azərbaycanda pedaqogika elminin inkişafı (1991-2000-ci illər)", F.R.Baxşəliyevin "Heydər Əliyev və Azərbaycanın təhsil sistemində aparılan islahatların əsas istiqamətləri (problemin öyrənilməsinin müqayisəli-tarixi təcrübəsi)", E.N.Məmmədovanın "Azərbaycanda ümumtəhsil məktəb dərsliklərinin inkişaf istiqamətləri (1991-2007)", N.R.İsmayılovanın "Müstəqillik illərində Azərbaycanda ibtidai təhsilin inkişafı (1918-1920 və1991-ci ildən sonra)" adlı və digər dissertasiyalar müdafiə olunmuş, onlardan bəzisi kitab halında nəşr edilmişdir.

Müstəqillik illərində təhsilin inkişafı mərhələlərinin geniş təhlili təhsil naziri işləmiş (1998-2013) M.Mərdanovun hesabatlarında və kitablarında öz əksini tapmışdır. O, təhsil sisteminin bütün pillə və mərhələlərini əhatə edərək hər bir istiqamət üzrə görülmüş işləri, qazanılmış nailiyyətləri, mövcud problemləri əhatə etmişdir. Onun kitablarında inkişafın statistik və riyazi hesablama təqdimatı da geniş yer tutur.

M.Mərdanovun qədim dövrdən bu günə qədər keçilən yolu əhatə edən üç cildlik "Azərbaycan təhsil tarixi" adlı əsəri də geniş oxucu marağına səbəb olmuşdur. Müəllif əsərin III cildində təhsilin Azərbaycanın müstəqillik illərindəki inkişafı ilə əlaqədar qazanılmış nailiyyətləri ümumi-

ləşdirir.

Bu əsərdə analitik, tarixi-müqayisəli, tədqiqi təhlil lazımınca yer tutmasa da, təhsilin inkişaf istiqamətlərinin məzmununu, inkişafa şərait yaradan prezident fərman və sərəncamlarının stimullaşdırıcı rolunu və bütün sahələrdə inkişafın dinamikasının statistikasını təqdim etmişdir.

“Azərbaycan təhsil tarixi” əsərinin III cildinin II fəsli ümumi təhsilin inkişafı məsələlərini əhatə edir. Lakin digər müəlliflərin tədqiqatlarında müstəqillik dövründə Azərbaycanda ümumi təhsilin inkişafının, konkret problem olaraq, ciddi elmi təhlili verilmir. A.O.Mehrabov, A.N.Abbasov və M.C.Mahmudovun 2013-cü ildə nəşr etdikləri “Təhsilin modernləşdirilməsinin aktual problemləri” və İ.H.Cəbrayılov tərəfindən nəşrə hazırlanmış “Təhsilin modernləşdirilməsinin elmi-nəzəri problemləri” kitablarında problemə təhsil sistemi mövqeyindən yanaşılır. Ə.Ağayevin “Azərbaycan Respublikasında ümumi təhsilin modern inkişafı” adlı məqaləsində konkret olaraq bu məsələyə yığcam toxunulmuşdur.

Göründüyü kimi, 1991-ci ildən ötən dövr ərzində ümumi təhsilin inkişafında yeniliklərlə müşaiyət olunan müasirlik keyfiyyətləri ayrıca tədqiqat obyektinə çevrilməmişdir. Bunun üçün kifayət qədər material vardır. Ümumi təhsilin nəzəri və praktik istiqamətlərdə yeniləşərək müasirləşmə meylləri mərhələ-mərhələ öyrənilməli, modern inkişaf mərhələsi üzə çıxarılmalıdır. Problemin zəruriliyini nəzərə alaraq “Azərbaycan Respublikasında ümumi təhsilin modern inkişafı (1991-2011-ci illər)” mövzusunda tədqiqat aparmağı və nəticələri dissertasiya işində ümumiləşdirməyi aktual hesab etdik.

**Tədqiqatın obyekti** müstəqillikdən ötən 20 il ərzində (1991-2011) Azərbaycanda həyata keçirilən ümumi təhsilin modern inkişafı prosesidir.

**Tədqiqatın predmetini** Azərbaycan Pespublikasında 1991-ci ildən 2011-ci ilə qədərki dövrdə ümumi təhsilin modern inkişaf xüsusiyyətləri təşkil edir.

**Tədqiqatın məqsədi.** Azərbaycan Respublikasında 1991-2011-ci illərdə ümumi təhsilin inkişafı tendensiyalarını və müasirləşmə xüsusiyyətlərini aşkarlamaq, inkişafın dinamikasını, yeniləşmənin xüsusiyyətlərini müəyyənləşdirməkdir. Məqsədə uyğun olaraq aşağıda qeyd edilən **vəzifələrin** yerinə yetirilməsi nəzərdə tutulur:

1. Azərbaycan Respublikasında təhsilin modern inkişafı istiqamətində aparılan araşdırmaların nəzərdən keçirilməsi;

2. Müstəqillik illərindəki yeni ictimai şəraiti səciyyələndirmək və dövlətin təhsil siyasətinin mahiyyətini şərh etmək;

3. Vətəndaş cəmiyyəti şəraitində təhsilin modern inkişafında qeyri-

hökumət təşkilatlarının rolunun üzə çıxarılması;

4. Ümumi təhsilin modern inkişafının əsas istiqamətlərini müəyyənləşdirmək və problemə kompleks yanaşılmasını təmin emək;

**Tədqiqatın fərziyyəsi.** Müstəqillik illərində ümumi təhsilin modern inkişafı yeniləşmənin məzmununun və mahiyyətinin zənginləşməsinə, qabaqcıl təhsil təcrübələrinin tətbiqinə və perspektiv inkişafın məqsədyönlülüyünə təkan verir, yeniləşmənin müasirlik tələblərini təmin edir.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt, hadisə və proseslərin dərk edilməsi məqsədi ilə tətbiq olunan nəzəri müddəaların, metod və vasitələrin məcmusu təşkil edir.

**Tədqiqatın metodları.** Müşahidə, müsahibə, anket sorğusu, arxiv sənədlərinin və məktəb təcrübəsinin öyrənilməsi, tarixi-nəzəri müqayisəli təhlil.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, dissertasiyada müstəqillik illərində ölkəmizdə ümumi təhsilin modern inkişafının qanunauyğunluqları, elmi əsasları müəyyənləşdirilmiş, pedaqogika elminə müasirlik meyllərini daxil etmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Dissertasiyada yeniləşən cəmiyyətdə ümumi təhsilin modern inkişaf xüsusiyyətlərinin müəyyənləşdirilməsi ümumi təhsil nəzəriyyəsini yeni müddəalarla zənginləşdirir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Apardığımız tədqiqat imkan verir ki, alınan nəticələr tədris-metodik ədəbiyyata daxil edilsin, müvafiq fənlərdə mühazirə materialına çevrilsin. Digər tərəfdən, ölkəmizdə ümumi təhsilin modern inkişafı təcrübəsi bu sahədə işlərin genişləndirilməsinə və digər ölkələrdə istifadəsinə imkan verir.

**Müdafiəyə çıxarılan müddəalar:**

- Ümumi təhsilin inkişafının qanunvericilk əsaslarının hazırlanması, müstəqilliyin ilk illərindən yeni yaranan təhsilin sistem-strukturunu müəyyənləşdirməyə imkan verdi;
- Müstəqillik illərində ümumi təhsilin müasirləşmə prosesi ölkənin ictimai- iqtisadi inkişafına uyğun olaraq mərhələlərlə həyata keçirildi;
- Ümumi təhsilin müasirləşməsində Azərbaycan dövlətinin konseptual layihə və proqramları mühüm əhəmiyyət daşıdı;
- Ümumi təhsilin inkişaf etdirilməsində qeyri-hökumət təşkilatlarının əhəmiyyətli rol oynaması səmərəli nəticələr verdi;
- Ümumi təhsilin inkişafının kompleks həyata keçirilməsi milli təcrübə ilə birlikdə inkişaf etmiş ölkələrin qabaqcıl təcrübələrinin öyrənilməsi və tətbiqi, maddi-texniki bazanın müasir tələblər səviyyəsində təminatı, yeni texnologiyalardan istifadə ümumi təhsilin modern inkişafının nəticə-

lənməsinə imkan verdi.

**Tədqiqatın aprobasiyası:**

- Dissertasiyanın nəticələri ilə bağlı Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nəşrlərdə 8 tezis, 8 məqalə (o cümlədən 2-si xaricdə) nəşr olunmuşdur.
- Doktorant tədqiqatla bağlı respublika və beynəlxalq konfranslarda məruzə ilə çıxış etmişdir.

**Dissertasiyanın quruluşu:** Dissertasiya giriş, 3 fəsil və bu fəsillərə uyğun 6 yarımfəsildən, nəticə və təkliflərdən, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

**"Giriş"də** araşdırılan mövzunun aktuallığı, obyekti və predmeti, tədqiqatın məqsədi, vəzifələri, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, işin fərziyyəsi, müdafiəyə çıxarılan müddəalar, tədqiqatın aprobasiyası və digər məsələlər yığcam şəkildə öz əksini tapmışdır.

**Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra ölkədə ümumi təhsilin təşkili** məsələlərinin şərhinə həsr edilən birinci fəslin **"Yeniləşən cəmiyyətdə təhsil və onun aktuallığını şərtləndirən cəhətlər"** adlanan ilk yarımfəsilində yeniləşən cəmiyyətdə təhsil və onun aktuallığını şərtləndirən cəhətlər geniş şərh olunur. Qeyd edilir ki, Azərbaycan xalqı uzunmüddətli təzyiqlərdən sonra müstəqil dövlət kimi imkan əldə etdi. SSR-nin çökməsi ilə Azərbaycan öz tarixinin yeniləşən və ən məhsuldar dövrünə qədəm qoydu.

Keçilmiş yol, qazanılmış təcrübə 1991-ci ildən müstəqilliyini bərpa etmiş Azərbaycan Dövlətinin faydalı təcrübə və ənənələrə biganə qalmayaraq, yeni milli təhsil siyasətini müəyyənləşdirməyə imkan verdi.

Təbii ki, gənc, müstəqil dövlətin ilk addımları bir sıra yeniliklərlə müşaiyət olunmalı idi. Ölkədə problemlər də var idi. Ona görə də o illərdə ölkədə ilk quruculuq addımlarını atmaq üçün ziyalıların fəallığı tələb olunurdu. Əvvələn, possovet dövründən qalmış strukturlar dəyişdirilməli, yeni cəmiyyətin, yeni siyasi, iqtisadi tələblərinə uyğun olaraq infrostrukturlar meydana qoyulmalı idi.

Yeniləşmələrdə təhsil sisteminin üzərinə böyük vəzifələr düşürdü, gənclər yeniləşən quruculuqda öz fəallıqlarını göstərməkdə idilər. Çünki "Hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan

Respublikasının gələcək yolu kimi qəbul etlməlidir”[1], “İdeoloji sahə olmaq baxımından təhsil sisteminin yenidən qurulması, onun məzmununun yeniləşdirilməsi, müstəqil dövlətin təhsil siyasətinin müəyyənləşdirilməsi xüsusi aktuallıq kəsb edirdi”[2].

Bu yarımfəsildə 1992-ci ildə Təhsil haqqında Qanunun hazırlanması və təsdiqi, ilkin hüquqi bazanın formalaşdırılması, dövlət təhsil ocaqları ilə yanaşı, özəl təhsil müəssisələrinin yaradılması, məktəblərdə mövcud olan əyani və texniki vasitələrin dağıdılması və digər o dövrdəki vəziyyəti əks etdirən məsələlər öz əksini tapır. Eləcə də yeni tədris planı, proqram və dərsliklərin hazırlanması, Türkiyə Cümhuriyyəti ilə təhsil əlaqələrinin gücləndirilməsi kimi ilk təşəbbüslər şərh olunur.

O zaman Naxçıvan MR Ali Sovetinin sədri vəzifəsində çalışan Heydər Əliyev Naxçıvan MR-də təhsilin yeni əsasda özülünün qoyulması üçün müəyyən tədbirlər görməyə başladı. Ulu öndərin 1993-cü ilin iyun ayından yenidən Azərbaycan Dövlətinə rəhbərliyə qayıtmasından sonra Azərbaycan bütün sahələrdə davamlı və inamlı inkişaf mərhələsinə qədəm qoydu.

1993-1998-ci illərdə prezident fərmanları, sərəncamları təhsil sahəsində görüləcək işlərin əsasınıı təşkil etdi, onu inkişafa yönəltdi. Bu illərdə Beynəlxalq əlaqələr gücləndirildi

Təhsilin müasirləşməsi şərtlərindən biri də Ulu öndər Heydər Əliyevin təhsil islahatı ideyasını irəli sürməsi ilə bağlıdır. Onun bu ideyasının reallaşması ilə yeni dövrün yeni mərhələsi yarandı. Bu mərhələ təhsil sistemində, təlim-tərbiyə prosesində təhsilin məzmununun və təlim texnologiyalarının zənginləşdirilməsində fəal təlim metodlarının tətbiqində əhəmiyyətli rol oynadı.

Beləliklə, Ulu öndərin təhsil sahəsində İslahat proqramı ideyası, təhsil ocaqlarındakı çıxışları Azərbaycan müəllimlərinin ilk Qurultayındakı nitqi, verdiyi dəyərli məsləhətlər təhsilin müasirləşməsinin ideya qaynaqlarını təşkil etdi.

Birinci fəslin **“Ümumi təhsilin inkişafının qanunvericilik əsasları**” adlanan II yarımfəslində müvafiq normativ-hüquqi sənədlər təhlil olunur və inkişaf üçün baxış rolu açıqlanır.

1991-ci ildən başlayaraq Təhsil qanunvericiliyində dəyişikliklər, yeni yanaşmalar meydana gəlirdi. Qanunvericiliyin yenişləndirilməsi istiqa-

---

[1] Müstəqil Azərbaycan Respublikası gənclərinin I Forumunda Azərbaycan Respublikasının PrezidentiH.Əliyevin nitqi. “Xalq qəzeti”, 6 fevral 1996

[2] Ağayev Ə.Ə. Azərbaycan Respublikasında ümumi təhsilin modern inkişafı. “Journal of Qafqaz Universty” beynəlxalq elmi jurnalı, 2011, N33, səh.61-68

mətində işlər həyata keçirildi. İlk işlərdən biri 1992-ci ilin oktyabr ayının 7-də müstəqil Azərbaycanın Təhsil haqqında Qanunun qəbul edilməsi oldu. Bundan sonra ümumi təhsil fəaliyyətini tənzimləyən bir sıra normativ hüquqi sənədlər hazırlandı və təsdiq olundu. 1995-ci ilin noyabr ayının 12-də Azərbaycan Respublikasının Konstitutsiyasının qəbul edilməsi ilə Əsas Qanunun irəli sürdüyü prinsip və tələblərə uyğun olaraq, təhsil sahəsində yeni qanunvericilik sənədləri hazırlandı və qəbul edildi.

1998-ci ilin sentyabr ayının 25-də keçirilən Azərbaycan müəllimlərinin ənənəvi XI qurultayında yeni dövrün tələblərini nəzərə alaraq mükəmməl yeni Qanun layihəsinin hazırlanması tövsiyyə olundu. Eləcə də 1998-ci ildən təhsil sahəsində islahatların aparılması üçün əlverişli şərait yarandı. 1998-ci ilin mart ayında təhsil sahəsində Azərbaycan Respublikasında İslahatlar üzrə Dövlət Komissiyası haqqında Azərbaycan Respublikasının prezidenti H.Əliyev sərəncam imzaladı və İslahat Proqramı hazırlamaq üçün Komissiya yaradıldı.1999-cu ilin iyunun 15-də 168 saylı sərəncamla "Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı" dövlət başçısı tərəfindən təsdiq olundu. İslahat hazırlıq mərhələsi olan 1999-cu ildən başlayaraq 3 mərhələdə keçirildi.

Proqramın əhatə etdiyi istiqamətlər belə idi: Təhsil strukturunda, təlim-tərbiyənin məzmununda, kadr hazırlığı və təminatında, tədris sistemini tədris elmi-metodiki və informasiya təminatında təhsil sisteminin idarə olunmasında, təhsil sisteminin maddi texniki bazasında, təhsilin iqtisadiyyatında yeni yanaşmalar və innovasiyalar həyata keçirmək.

Dissertasiyada bununla əlaqədar görülən işlər və onların nəticələri təhlil olunur.

Diqqət çəkən cəhətlərdən biri də "Azərbaycan Respublikasında Ümumtəhsilin Konsepsiyası (Milli Kurikulum)" (2006) adlı sənədin qəbul edilməsi oldu.

Dissertasiyada Azərbaycan Respublikasında Ümumi təhsil Konsepsiyasının (Milli Kurikulum) əhatə etdiyi məsələlər şərh olunur, modernləşmə istiqamətində görülən işlər ümumiləşdirilir.

2009-cu ilin iyun ayında Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu Milli Məclisdə qəbul edildi və iyunun 19-da Azərbaycan Respublikası prezidenti "Təhsil haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" fərman imzaladı. Beləliklə, bu qanun 5 sentyabr 2009-cu ildən qüvvəyə mindi.

Dissertasiyada təhsil haqqında qanunun icrasının təmin olunması məqsədilə Təhsil Nazirliyi tərəfindən 40-dan çox normativ-hüquqi sənədin hazırlanması və Nazirlər Kabineti tərəfindən təsdiq edilən sənədlərin

mahiyyətinin şərhi istiqamətində təhlillər aparılmışdır.

Ümumi təhsilin inkişafının ilkin qanunvericilik əsasları sonrakı dövrdə yeni strateji sənədlərin meydana çıxmasını və ümumi təhsildə modernləşməni şərtləndirdi.

Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğu dövlət müəssisələri ilə Qeyri-Hökümət Təşkilatlarının əlbir və əlaqəli fəaliyyətini xeyli aktuallaşdırdı. Bu baxımdan təhsil sahəsində fəaliyyət göstərən QHT-lərin təcrübəsi ümumitəhsilin müasir məzmunda qurulmasına yardımcı oldu.

Dissertasiyanın I fəslinin III yarımfəslində **ümumitəhsilin inkişaf etdirilməsində QHT-lərin rolu** təhlilə cəlb olunur. "Azərbaycan Respublikası Təhsil sahəsində İslahat Proqramı"nda yazılmışdır: "Təhsilin inkişafı müasir şəraitdə yalnız dövlətin vəzifəsi olmayıb, demokratik cəmiyyətin bütün ünsürlərinin, təhsilalanlar və onların ailələrinin, dövlət və qeyri-dövlət təhsil müəssisələrinin, elmi-pedaqoji birliklərin, mütəxəssislərlə təmin olunmağa ehtiyacı olan potensial tələbatçıların, ictimai və dini birliklərin çoxsahəli və çoxaspektli əməkdaşlıq sahəsidir." [1]

Məhz buna görə də dissertasiyada təhsil sahəsi üzrə ictimai birliklərin ölkəmizdə ümumitəhsilin modern inkişafı ilə əlaqədar fəaliyyətinə toxunulmuşdur. Bu yanaşma ümumi təhsilin inkişafına demokratik cəmiyyətdə bir tərəfli deyil, sistemli yanaşmaya imkan verir.

Dissertasiyada Azərbaycanda fəaliyyət göstərən təhsil üzrə QHT-lərin ümumitəhsilin qarşısında qoyulan vəzifələrin yerinə yetirilməsində iştirakından faktlarla söhbət açılır. Təhsil Şurası İctimai birliyinin, Təhsil Cəmiyyətinin, Azad Müəllimlər Birliyinin keçirdiyi tədbirlər təhlil olunur, onların ümumi təhsilin inkişaf etdirilməsində müəyyən xidmətləri göstərilir.

**"Ümumi təhsilin modern inkişafının əsas istiqamətləri"** adlanan II fəslin **"Maddi-texniki bazanın yenidən qurulması və inkişaf etdirilməsi"** başlıqlı I yarımfəslində maddi-texniki bazanın yenidən qurulması və inkişaf etdirilməsi məsələləri əhatə olunur.

Qeyd edilir ki, təhsil sistemində islahatların uğurla həyata keçirilməsində təhsil prosesinin müasir tələblərə və beynəlxalq standartlara cavab verən maddi-texniki bazaya malik olmasının xüsusi əhəmiyyəti vardır.

Dissertasiyada Azərbaycanda müstəqilliyin ilk illərində müəyyən çətinliklərin olduğu, durğunluğun hökm sürdüyü, bundan əlavə erməni təcavüzü nəticəsində Azərbaycan təhsilinə ciddi ziyan vurulduğu göstərilir. Qeyd edilir ki, bütün çətinliklərə baxmayaraq, dövlətimizin başçısı Heydər Əliyev cənabları təhsil sistemimizin bütün sahələrində, o cümlədən ümumtəhsil məktəbinin maddi-texniki və tədris bazasının möhkəmlən-

dirilməsinə xüsusi önəm verdi. Dövlət təşkilatlatlarının, Beynəlxalq təşkilatlatların fond və kreditləri, iş adamları və xeyriyyəçilərin vəsaiti hesabına ölkənin müxtəlif regionlarında 1998-2002-ci illərdə ümumilikdə 23053 şagird yerlik 139 yeni məktəb binası inşa edildi.

Azərbaycan Dövlətinin başçısı cənab Heydər Əliyevin 2002-ci ilin 04 oktyabr tarixli "Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" sərəncamı bu sahədə işlərin sürətlənməsinə təkan verdi.

"Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqlarıyla təmin olunmasına dair proqram (2003-2007-ci illər)" bu sahədə işlərin sistemli və sürətli həyata keçirilməsini təmin etdi.

2000-2003cü illərdə islahatlar çərçivəsində pilot məktəblər üçün 512 dəst kompyuter, 77 printer, 34 surətçıxarma maşını, 100 televizor, 216 stereo maqnitafon, 92 video maqintafon, 189 müxtəlif proyektor, o cümlədən multi media proyektorlar, 28 video kamera və digər audio-vizual avadanlıqlar hazırlandı. Bundan başqa pilot müəssisələr 5950 dəst şagird masası, 470 yazı lövhəsi, akt zalı üçün 1897 kreslo və digər mebel avadanlığı ilə təchiz olundu.

Dissertasiyada regionların sosial-iqtisadi inkişafının sürətlənməsinə, Bakı şəhəri və Abşeron yarmadasında məktəb tikintisinə, Bakı şəhərinin qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial iqtisadi inkişafının sürətləndirilməsinə dair proqramlara uyğun olaraq ümumi təhsildə maddi-texniki bazanın və məktəb tikintisinin həyata keçirilməsi faktlar üzrə şərh edilir. Eləcə də məcburi köçkünlər üçün təhsil şəraiti yaradılması məqsədilə görülən işlər təhlilə cəlb olunur; məktəblərin İKT ilə təminatı və təhsilin informasiyalaşdırılması sahəsində görülən işlər geniş şəkildə öz təhlilini tapır.

2002-ci ildə ölkə prezidenti H.Əliyev tərəfindən təsdiq edilən və 2003-2004-cü illəri əhatə edən Dövlət proqramından sonra bu iş sistemli şəkildə prezident İlham Əliyev tərəfindən geniş vüsət almışdır.

Məktəblərin infrostrukturunun yeniləşdirilməsi istiqamətində H.Əliyev fondunun təşəbbüsü ilə "Yeniləşən Azərbaycan yeni məktəb" çərçivəsində 2005-2011-ci illərdə 300-dən çox yeni məktəb, uşaq bağçası, uşaq evi, internat məktəbi tikilib istifadəyə verilmişdir.

Xüsusi qayğıya ehtiyacı olan, kimsəsiz, valideyn himayəsindən məhrum, müəyyən mənada cəmiyyətin diqqətindən kənarda qalan uşaqların təhsilinin təşkili, onların təhsil aldığı müəssisələrin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi istiqamətində H.Əliyev fondu tərəfindən

məqsədyönlü işlər görülmüşdür.

2005-2011-ci illərdə ümumtəhsil məktəblərinin avadanlıqla təminatını aşağıdakı cədvəldən görmək mümkündür.

*Cədvəl 1*

2005-2011-ci illərdə ümumtəhsil məktəblərinin avadanlıqlarla təminatı

| Avadanlıqların adı | İllər üzrə verilən avadanlıqların sayı | | | | | | | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | |
| Şagird masası | 17500 | 56599 | 65000 | 68157 | 27414 | 27414 | 12957 | 275041 |
| Yazı lövhəsi | 1500 | 4880 | 5000 | 6520 | 2315 | 2315 | 1080 | 23610 |
| Müəllim masası | 1700 | 6104 | 7000 | 8180 | 4313 | 4313 | 2095 | 33704 |
| Müəllim stulu | 2600 | 7594 | 8000 | 11377 | 7662 | 7662 | 3750 | 48645 |

Dissertasiyada məktəblərin maddi-texniki bazasının müasir tələblər səviyyəsinə çatdırması məqsədilə onların təlim keyfiyyətinə təsir göstərən tədris laboratoriyaları ilə təmin olunması məsələsi də öz təhlilini tapır. Maddi-texniki bazanın möhkəmləndirilməsi və yenidən qurulması nəticəsində ümumi təhsilin modern inkişafının əsası qoyulur və bu, digər effektlərlə ildən-ilə inkişaf etdirilir.

II fəslin II yarımfəsli **"Ümumi təhsilin məzmunca yeniləşməsi və qiymətləndirmədə yeniliklər"** adlanır. Bu yarımfəsldə ümumtəhsilin modern inkişafının əsas göstəricilərindən biri olan ümumtəhsilin məzmunun yeniləşdirilməsi ilə əlaqədar həyata keçrilən tədbirlər araşdırılır, ümumi nəticə çıxarılır, eləcə də qiymətləndirmə problemi ortaya qoyulur, yeniliklər təhlil olunaraq ümumiləşdirilir. Bu yarımfəslin əvvəlində latın qrafikalı əlifbaya keçilməsi ilə əlaqədar şərhlər verilir, yeni dərsliklərin, proqramların, pedaqoji ədəbiyyatın yeni əlifbada hazırlanmasının aktuallığı göstərilir. Çətinliklərə baxmayaraq, 1993-cü ildən I-IV siniflər üçün bütün dərsliklər, V-XI sinflər üçün humanitar profilli (azərbaycan dili, ədəbiyyat, tarix, coğrafiya) dərslikləri milli tərzdə hazırlanmış və nəşrinə başlanmışdır. Bu istiqamətdə aparılan bütün işlər üç mərhələni: 1991-1998-ci, 1999-2003-cü, 2004-2011-ci illəri əhatə etdi.

Dissertasiyada yeni dərsliklərin hazırlanması, tədris planının yeniləşdirilməsi, proqramların yeni məzmuna uyğun olaraq hazırlanması geniş şəkildə təhlil olunur və mövqeyi üzə çıxarılır.

1994-95-ci tədris ilində X-XI siniflər üçün 77 adda 6069000 nüsxədə dərslik çap edilmişdir. Yeni hazırlanan dərsliklər əvvəlkilərə nisbətən xeyli təkmilləşmiş olsa da, dərsliyin məzmunu, tərtibatı, ideoloji istiqaməti, poliqrafik keyfiyyəti tələblərə cavab vermirdi. Sonrakı illərdə bu dərslik-

lərdən istifadə etməklə onların keyfiyyətinin yaxşılaşdırılması istiqamətində işlər genişləndirilmişdir.

1999-2000-ci tədris ilindən başlayaraq modernləşdirməyə doğru hərəkat daha da gücləndirildi. Dövlətin 26 aprel 1999-cu il tarixli qərarı ilə Azərbaycan Respublikasında ümumi orta təhsilin dövlət standartları-bazis tədris planı işlənib hazırlanmış və təsdiq olunmuşdur. Yeni işçi tədris planları tətbiqə başlanmışdır.

1999-cu ildən dərslik siyasətinin II mərhələsinə start verilmişdir. Dərsliklərin, tədris planları və proqramların, dərs vəsaitlərinin və digər tədris-metodik ədəbiyyatın məzmunca və keyfiyyətcə yeniləşdirilməsi, müasir təhsil standartlarına cavab verən yeni nəsil dərsliklərin hazırlanması və ümumi təhsil məktəblərinin bu dərsliklərlə dövlət vəsaiti hesabına təmin edilməsi həyata keçirilməyə başlanılmışdır. Tədris planına I siniflər üçün xarici dil, həyat bilgisi yeni fənlər olaraq daxil edilmiş, əmək təlimi, texnologiya, bədən tərbiyəsi-fiziki tərbiyə adı ilə təqdim edilmişdir.

Dərslik islahatının II mərhələsindəki ən mühüm yeniliklərədn biri fizika, riyaziyyat, kimya, biologiya fənləri üzrə yeni nəsil milli dərsliklərin hazırlanması və nəşri olmuşdur. Sonrakı illərdə biologiya, fizika, kimya, astronomiya, azərbaycan dili, ədəbiyyat dərslikləri yeniləşdirildi və ümumtəhsil məktəblərinə pulsuz olaraq çatdırıldı.

Bazis tədris planında təhsil müəssisəsinin növündən asılı olaraq ümumtəhsilin səviyyələri, siniflər üzrə Respublika və məktəb komponentləri, tədris vaxtının bölünməsi və təlimin müddəti müəyyən olundu.

2003-cü ildən başlayaraq dərslik islahatının III mərhələsi bu sahədə işlərin daha da genişləndirilməsini həyata keçirdi. Bu mərhələdə qaçqın və məcburi köçgün şagirdlər üçün 53 adda 515640 nüsxə dərslik dövlət hesabına çap olundu.

2004-cü ildə təlimi qeyri azərbaycan dilində olan məktəblərin, I-XI sinifləri üçün “Azərbaycan dili” və “İnformatika” proqramları təsdiq olundu və tətbiqə başlanıldı.

2004-cü ildən başlanan III mərhələdə məzmun dəyişiklikləri Kurikulum İslahatları adı altında meydana çıxmışdır. Dissertasiyada Kurikulum İslahatının mahiyyəti, yeni işlərnən anlayışlar, təlim nailiyyətinin qiymətləndirilməsi və monitorinqi, təlim nəticələri, məzmun və qiymətləndirmə standartları, təlim strategiyaları ilə əlaqədar araşdırma nəticələri öz əksini tapır. Eləcə də 2007-ci ildən başlayaraq I-IV siniflər üçün yeni fənn kurikulumları və tədris planlarının tətbiqi məsələləri geniş şərh olunur. Modernləşmənin mahiyyətinə daxil olan nəticəyönümlülük, şəxsiyyətyönümlülük, tələbyönümlülük, interaktivlik, inteqrasiya kimi anlayışlar, eləcə

də prosesdə bu anlayışların yeri qeyd olunur.

Dissertasiyada Dünya Bankının maliyyə yardımı ilə həyata keçrilən təhsil sektorunun inkişafı lahiyəsi çərçivəsində dərsliklərin hazırlanması, qiymətləndirilməsi, sinifdənxaric oxu üzrə ehtiyacların ödənilməsi və digər zəruri məsələlər öz həllini tapır.

Modernləşmədə xüsusi əhəmiyyət daşıyan ümumtəhsil sistemində qiymətləndirmə kosepsiyası, konsepsiyanın məqsədi, qiymətləndirmənin tərkib hissələri (diaqnostik, formativ, summativ), qiymətləndirmədə istifadə edilən metod və vasitələr (müsahibə, söhbət, müşahidə, tapşırıqlar), milli və beynəlxalq qiymətləndirmə, valideynlər və digər fənn müəllimləri ilə əməkdaşlıq dissertasiyada geniş təhlil olunur.

Göründüyü kimi, ümumi təhsilin məzmunun yeniləşdirilməsi, yeni nəsil dərsliklərin və dərs vəsaitlərinin hazırlanması, müasir təlim texnologiyaları, şagird nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemin tətbiqi yeniləşmənin mahiyyətinə daxil olan məsələlər kimi müasirliyi ehtiva edir.

II fəslin III yarımfəsli **“Ümumtəhsildə İKT-dən tədrisdə istifadə yeniləşmələrin başlıca amili kimi”** adlanır. Modernləşmənin başlıca tələblərindən biri təhsil pillələrində təhsilalanlarda informasiya texnologiyalarından istifadə vərdişlərinin formalaşdırılması, onlarda İKT bacarıqlarını inkişaf etdirməkdir. Məhz bunun nəticəsi olaraq 2008-ci ilin mayında Bakı şəhərində UNESKO VƏ USESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə “Dünyada savadlılığın dəstəklənməsi” mövzusunda UNESKO-nun regional konfransı keçirildi. Konfransda internetin inkişafı, kompyuterdən, internetdən istifadə, insanların kompyuter, informasiya, multimedia savadlılığı önəm aldı. Təhsil prosesində İKT vasitələrinin imkanlarından səmərəli istifadə yollarının aşkara çıxarılması istiqamətində tədqiqatlar aparılmağa başlandı, bu proses daimi inkişafın tələbinə çevrildi.

Təhsil prosesində İKT-dən istifadə təkcə müəllim əməyini yüngülləşdirən bir vasitə olmayıb, həm də bir öyrənmə obyekti oldu. İnformasiya texnologiyasının və internetin inkişafı tədris prosesində yeni imkanlar açdı.

Dissertasiyada tədrisdə İKT-dən istifadənin istiqamətləri müəyyənləşdirilir və bu istiqamətlər üzrə şərhlər aparılır.

2003-cü ilin fevral ayında 2003-2012-ci illər üçün “Azərbaycan Respublikasının inkişafı naminə İKT üzrə milli Strategiya” sənədinin qəbul edilməsi az bir müddətdə İKT üzrə qanunvericilik bazasını təşkil edən normativ-hühuqi sənədlərin hazırlanmasına imkan yaratdı.

Təhsil Nazirliyi Təhsil sisteminin informasiyalaşdırılması istiqamə-

tində bir sıra tədbirlər hazırlayıb həyata keçirtdi. Öyrədici multimedia sistemlərinin hazırlanmasına başlanılması, internetə qoşulan məktəblərin şəbəkəsinin genişləndirilməsi, təhsilin idarə edilməsinin məlumat sisteminin informasiya və kommunikasiya texnologiyalarının ümumtəhsil məktəblərində tətbiqi üzrə hazırlıq işlərinin genişləndirilməsi bu qəbildən idi.

21 avqust 2004-cü ildə Azərbaycan Respublikasının prezidenti İ.Əliyevin sərəncamı ilə "2005-2007-ci illər üçün Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramı"nın təsdiqi az müddətdə ümumtəhsil məktəblərində kompyuter və digər informasiya və kommunikasiya avadanlıqları ilə tədrisi reallaşdırdı.

Bu dövrdə elektron tədris resurslarının hazırlanması prosesində çətinliklər var idi. Bunun üçün müraciət olunan təşkilatlar vəsaitləri hazırlaya bilmirdilər. Bundan sonra İKT avadanlıqlarının alınması aktuallaşdı. Bu zaman iki vacib yanaşma diqqətdə tutulurdu. Bunlardan biri təhsil müəssisələrinə İKT avadanlıqlarının verilməsi, digəri istifadə edə bilən müəllimlərin hazırlanması idi.

2004-2005-ci tədris ili üçün tədris planında İnformatikanın I sinifdə tədrisinə başlanıldı və I-XI siniflər üçün yeni proqramlar hazırlandı.

Təlimdə İKT-dən istifadə müəllimin fəaliyyətindəki müasirləşən yeniliklərdən birinə çevrildi.

İKT-dən istifadə etməklə qurulan modern təhsil modeli məktəbin pedaqoji kollektivi qarşısına yeni tələblər qoydu. İndiyə qədər müəllim pedaqogika, metodika və psixologiya sahəsində fundamental biliklərə malik olurdusa, modernləşmənin tələbi onun informasiya sahəsindəki biliklərə yiyələnməsini zərurətə çevirdi.

Dissertasiyada İKT-dən, elektron dərsliklərlə işləməkdən, "ağıllı lövhə" ilə işləmək imkanlarından, İKT-nin tətbiqinin şagirdlərdə ətraf aləmi informasiya baxımından təhlil etmək və müvafiq nəticələr çıxarmaq bacarığının formalaşdırılmasına yaradılan imkanlardan geniş bəhs olunur.

II fəslin IV yarımfəsli **"Ümumtəhsildə müasir təlim metod və texnologiyalarından istifadə modernləşmənin mühüm vasitəsi kimi"** adlanır.

Elmin, texnikanın, texnologiyanın, xüsusilə kompyuter texnologiyasının sürətli inkişafı insanın özünüinkişafına, təkmilləşdirməsinə şərait yaratdı. Bu şərait təlim metodlarının müasirləşməsi və təlim texnologiyalarının yeniləşməsi ilə müşaiyət olunur.

Dissertasiyada əvvəlcə təlim metodları haqqında klassik pedaqoji yanaşma təhlil olunur, görkəmli pedaqoqların (M.M.Mehdizadə,

Y.R.Talıbov, N.M,Kurimed, D.O.Lordkipanidze, M.N. Skatkin, İ.Y.Lerner, Y.K.Babanski, D.V.Çernilevski və b.) fikirlərinə münasibət bildirilir. Sonra 1991-ci ildən başlayaraq müasirləşməyə aparan fəal təlim metodlarının nəzəri və praktik inkişaf xüsusiyyətləri aşkarlanır.

Qeyd edilir ki, fəal təlim dedikdə həm interaktiv metodlardan istifadə, həm də kütləvilik qazanmış ənənəvi üsul və vasitələrdən faydalanma nəzərdə tutulur.

İstər fəal, istərsə də interaktiv təlim metodlarından istifadə müəllimin pedaqoji, metodiki ustalığından çox asılıdır. Müəllimin ən böyük ustalığı onun hər bir mövzuya uyğun metod seçmək qabiliyyətinə malik olmasıdır. Fəal metoddan istifadə təlimin fəallaşdırılmasnı təmin edir, nəticədə şagirdlərin öyrənməyə marağı artır, diqqəti yüksəlir. Ancaq bunun üçün mənəvi-psixoloji mühit olmalı, müəllim-şagird əməkdaşlığı diqqətdə dayanmalıdır.

Tədrisdə interaktiv təlim metodlarından istifadə təkcə təlim prosesinin deyil, şagirdlərin fəallığını, sərbəst düşünməyə, müstəqillik vərdişlərinə yiyələnməsini artırır. Bəzi müəlliflər fəal və interaktiv anlayışlarını eyniləşdirirlər. Təcrübə göstərir ki, bu, belə deyil. Bu cəhətdən Ə.Ə.Ağayevin mövqeyi daha konkret yanaşmaya əsaslanır. Onun fikrincə, fəal təlim metodları ilə interaktiv təlim metodları mənaca biri-birinə yaxın olsalar da, müəyyən cəhətlərinə görə biri-birindən fərqlənirlər. Fəal təlim metodlarının interaktiv təlim metodları ilə yaxınlığı mahiyyətlərindən doğur. Lakin tətbiq və seçimə görə biri-birindən fərqlənir. Belə ki, əgər interaktiv təlim metodları dərsdə təlim prosesinin gedişindən doğursa, yəni biri digərini əvəz edərək meydana çıxır və öyrənənlərin hamısının birlikdə tam müstəqil fəaliyyətini təmin edirsə, fəal metodlar əvvəlcədən planlaşdırılmış təlimin fəallaşdırılmasına şərait yaradır.

İnteraktiv təlimdə mexaniki yaddaşın deyil, təfəkkürün inkişafı, biliklərin əldə edilməsinin müstəqilliyi, sərbəstliyi nəzərdə tutulur. Fəal və interaktiv təlim metodlarının ümumtəhsil məktəblərində geniş yayılması ayrı-ayrı fənlər üzrə zəngin tədris təcrübəsinin yaranmasına səbəb olmuşdur. Lakin təlimdə modernləşmə yalnız metodların yeniləşməsi ilə kifayətlənmir. Bu cəhətdən təlimin bütün komponentlərini bir sistem halında birləşdirən təlim texnologiyalarından istifadə daha önəmli yer tutur. Təlim texnologiyaları sisteminə ənənəvi təlim texnologiyalarını; fəal təlim texnologiyalarını; proqramlaşdırılmış və problemli təlim texnologiyalarını, inkişafetdirici təlim texnologiyalarını, hətta pedaqoji oyunları da daxil etmək olar.

Yeni təlim texnologiyaları əsasında tədris edilən dərslərdə müəllim-

rəhbər, müəllim-təşkilatçı, müəllim-təlimatçı, müəllim-faslitator, müəllim-dizayner funksiyasını yerinə yetirir. Xüsusilə interaktiv təlim metodlarının tətbiqində bu funksiyalar daha qabarıq üzə çıxır.

Dissertasiyada yeni təlim texnologiyalarının funksiyaları, tətbiq imkanları, müasirlik effektləri geniş təhlil olunur, bu barədə alimlərin fikirlərinə münasibət bildilir. Qeyd edilir ki, modern inkişaf özünü tam yeniləşmədə göstərir. Uğurlu müasirləşmənin başlanğıcı təlimin düzgün, səmərəli təşkilindən asılıdır. Bu zaman pedaqoji prosesin tamlığı, dəstəkləyici mühitin və sosial-mənəvi mühitin yaranması fəaliyyətin stimullaşdırılması, İKT-dən, interaktiv və fəal təlim metodlarından məqsədəuyğun şəkildə istifadə edilməsi, pedaqoji oyunların (didaktik, işgüzar rollu, oyun-tapmaca, oyun-yarış və s.)  məqamında prosesə daxil edilməsi mühüm əhəmiyyət daşıyır.

*Cədvəl 2*

Təlimin təşkili tələblərini göstərən cədvəl




Ümumi təhsildə modern inkişafı təmin edən yenilikçi ideya və fikirlər, hüquqi və maddi-texniki bazanın yaradılması, müəllimlərlə öyrədici təlimin keçirilməsi və s. təşkilati rədbirlər mühüm əhəmiyyət daşısa da, faktiki, real inkişaf özünü təcrübədə, pedaqoji prosesdə göstərir. Ona görə də Respub-

likanın bir sıra şəhər və rayon məktəblərindəki ümumtəhsil məktəblərinin bir neçəsində pedaqoji prosesi konkret olaraq ayrı-ayrı fənlər üzrə keçilən dərsləri müşahidə etməli olduq. Mahirə Hüseynovanın, Fəridə Qəmbərovanın (Bakı şəhəri, 45 nömrəli tam orta məktəb), Mələknisə İsmayılovanın (Mingəçevir şəhər liseyi), Nüşabə Mustafayevanın (Zərifə Əliyeva adına 1 nömrəli tam orta məktəb), Şəhla Nadirovanın (Siyəzən şəhər 1 nömrəli tam orta məktəb), Rəna Sarayevanın (Bakı şəhərindəki 13 nömrəli tam orta məktəb), Mehriban Məmmədovaının (Kürdəmir şəhər 1 nömrəli tam orta məktəb), Xəyalə Veysovanın (Kürdəmir şəhər 3 nömrəli tam orta məktəb), Hümbət Qasımovun (Salyan rayonu Təbriz Xəlilbəyli adına Xıdırlı kənd tam orta məktəbi), Elfira Nurullayevanın, İlahə Heydərovanın, Təranə Ağayevanın (Bakı şəhəri 114 saylı tam orta məktəb), Sədaqət Məhərrəmovanın (Qobustan şəhər 3 saylı tam orta məktəb), Təranə Zəkəriyyəyevanın (Oğuz şəhər 2 saylı tam orta məktəb) və digər yenilikçi müəllimlərin dərslərinin müşahidəsi göstərdi ki, onlar təlim-tədris işini təhsilin modern inkişafı səviyyəsində qururlar. Bunlar İslahatların həyata keçirilməsi nəticəsi olaraq, tədrisi inkişafla müasirləşməyə yiyələnmişlər. Amma yeni qurulmuş elə özəl ümumtəhsil məktəbləri vardır ki, onlar təhsilin modern inkişaf səviyyəsinə uyğun olaraq fəaliyyətə başlamışlar. Belələrinə “Xəzər universiteti”nin Dünya məktəbini, “Avropa-Azərbaycan” məktəblərini, “Kaspi” məktəblərini, “İdrak” liseyini misal göstərmək olar. Bunlarla yanaşı, hələ xeyli ümumtəhsil məktəbinin müasirləşmədən kənarda qaldığını, işdə formalizmə yol verildiyini müşahidə etdik.

Araşdırmalardan gəlinən nəticə belədir ki, təhsilin müasir, fəal və interaktiv təlim metodları ilə təlim texnologiyalarından yaradıcılıqla istifadə etməklə təşkili və keçirilməsi keyfiyyətli nəticələr əldə edilməsinə imkan verir və ümumi təhsilin modern inkişafını şərtləndirir.

II fəslin son yarımfəsli **“Ümumi təhsil məktəbləri üçün pedaqoji kadr hazırlığında yeni yanaşmalar**” adlanır. Bu yarımfəsildə 1991-ci ildən sonra ölkədəki yeniləşmələr şəraitində pedaqoji kadr hazırlığı problemlərinin həlli tez əlaqədar görülmüş işlərdən, kadr hazırlığı siyasətində meydana çıxan yeni yanaşmalardan bəhs olunur. Qeyd edilir ki, 1998-ci ildən, yəni Azərbaycan Müəllimlərinin XI Qurultayından sonra yeniləşmələr özünü qabarıq şəkildə göstərməyə başladı. Xüsusilə Azərbaycan Respublikasının “Təhsil sahəsində İslahat proqramı”nın tətbiqi ilə təhsil sisteminin müxtəlif tipli müəssisə və təşkilkatları üçün rəhbər kadrların hazırlanması sahəsində yeni yanaşmalar özünü göstərdi. Belə ki, təhsil müəssisələrinin kadrlarrla komplektləşdirmə mexanizmi yaradıldı, respublikanın regionlarını kadrlarla təmin etmək üçün onların sifarişi əsasında

kontrakt yolu ilə məqsədli mütəxəssis hazırlığına keçildi və digər müvafiq tədbirlər yolu ilə pedaqoji kadr hazırlığı yenə tələblərə uyğun olaraq yeniləşdirildi. 2004-cü ildə ölkənin bütün ümumtəhsil məktəblərində pedaqoji kadr təminatının monitorinqi aparıldı. Pedaqoji kadr ehtiyacını ödəmək üçün həmin il "Kənd yerlərindəki ümumtəhsil məktəblərinə pedaqoji kadrların cəlb olunmasının həvəsləndirilməsi tədbirləri haqqında" qəbul edilmiş qərar əsasında "2005-2009-cu illər üçün ümumtəhsil məktəbləri şəbəkəsində pedaqoji kadr təminatı üzrə inkişaf Proqramı" qəbul edildi. Bu proqrama görə rayon mərkəzindən 20 km-dək məsafədə yerləşən məktəblərə göndərilən pedaqoji kadrlara həvəsləndirici tədbirlər tətbiq edildi: yol xərci, əmlakın daşınması, aylıq əmək haqqının bir misli məbləğində bir dəfəlik yardım, mənzil-məişət şəraiti, torpaq sahələrinin ayrılması, güzəştli kreditlər. Qərar problemi tamamilə həll edə bilməsə də həmin gənclər içərisindən idarəedici kadrlar yetişdi.

2007-ci ildə Təhsil Nazirliyinin Dünya bankı ilə birgə hazırladığı Təhsil sektorunun inkişafı layihəsi çərçivəsində müəllim hazırlığının alt komponenti üzrə "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiyası və strategiyası" Nazirlər Kabinetinin qərarı ilə təsdiq olundu.

Dissertasiyada konsepsiya və strategiyanın həyata keçirilməsi üçün 6 strateji fəaliyyət istiqaməti təhsil olunur və tətbiqi nəticələri ümumiləşdirilir.

Nəticə olraq qeyd edə bilərik ki, pedaqoji kadr hazırlığının modernləşməsi tədris texnologiyaları ilə yanaşı, kadr amilinin müasir düşüncəyə və metodlara yiyələnməsi nəticəsində baş verir.

## NƏTİCƏ

Tədqiqatdan alınan nəticələri belə ümumiləşdirmək olar:

1. 1991-ci ildən başlayaraq Azərbaycan Respublikasında təhsilin normativ-hüquqi bazasının yaradılması, təhsilin bütün pillələrində, o cümlədən ümumi təhsilin müasirləşdirilməsi istiqamətində əsaslı işlər görülmüş, bir cox ölkənin təhsil sistemi, orada tətbiq olunan modellər, mexanizmlər dərindən öyrənilmişdir. Azərbaycanın milli xüsusiyyətləri, regional spesifikası, ötən illərdə qazanılmış zəngin təcrübə, mütərəqqi ənənələr nəzərə alınaraq güclü elmi-pedaqoji potensiala arxalanaraq təhsilin müxtəlif pillələri, o cümlədən ümumi təhsil pilləsi üçün yeni modellər işlənib hazırlanmış, konkret addımlar atılmağa başlanmış, eksperimentlər keçirilmiş, analitik təhlillər aparılmışdır.

2. Həyata keçirilən islahatların uğurlu nəticələri üçün xarici və ölkə daxili investisiyalar qoyulmuş, Dünya Bankının Azərbaycanın təhsil sisteminə islahatların aparılması üçün ayırdığı kreditin böyük rolu olmuşdur.

1991-ci ildən başlanan milli təhsil siyasətinin həyata keçirilməsi üçün ümumi təhsilin inkişafı naminə davamlı, ardıcıl, məqsədyönlü işlər aparılmış, dövlət başçısı tərəfindən sərəncamlar, qərarlar verilmiş, proqramlar hazırlanmış, layihələrin müzakirəsi keçirilmiş, ölkələrarasıdanışıqlar və məsləhətləşmələr aparılmışdır.

3. Ümumi təhsilin inkişafı qanunvericilik əsaslarınasöykənərək getmiş, təhsilin sistem-strukturu düzgün müəyyənləşdirilmiş, ümumi təhsildə baş verən müasirləşmə prosesi ölkənin ictimai-iiqtisadi inkişafına uyğun olaraq mərhələlərlə həyata keçirilmişdir.

4. Erməni işğalçılarının təcavüzünə məruz qalan və ağır nəticələrə düçar olan Azərbaycan 1993-cü ildən ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində stabil inkişaf yoluna qədəm qoymuşdur. Ümumi təhsilin maddi-texniki bazasının yaradılması məktəblərin infrastrukturunun yeniləşdirilməsi, avadanlıqlarla təchizatı, tədrisin səmərəliliyinə nail olmaq üçün informasiya-kommunikasiya texnologiyaların tətbiqi ümumi təhsilin modern inkişafı üçün zəmin yaratmışdır.

5. Ümumtəhsilin inkişafında Azərbaycan dövlətinin müxtəlif illərdə qəbul etdiyi layihələr və proqramlar, o cümlədən Qeyri-Hökumət təşkilatları əlverişli rol oynamış və səmərəli nəticələr əldə edilmişdir. Ümumi təhsilin həyata keçirilməsində qabaqcıl ölkələrin təcrübəsinin oyrənilməsi və tətbiqi, maddi-texniki bazanın yaradılmasının müasir tələblər səviyyəsində qurulması, pedaqoji kadr hazırlığı müasir təlim texnologiyalarından istifadə olunması ümumi təhsilin modern inkişafına imkan vermişdir.

6. Ümumi təhsilin məzmunu yeniləşdirilmiş, təhsilin milli və ümumbəşəri dəyərlərə əsaslanaraq təşkil edilməsi, təhsil sistemində demokratik və humanist mühitin yaradılması öz real həllini tapmışdır.

7. Ümumtəhsilin inkişafında və modernləşməsində Azərbaycan Dövlətinin konseptual layihə və proqramları mühüm əhəmiyyət daşımışdır.

8. Respublikada ictimai-siyasi sabitlik formalaşmış, Ümummilli Lider Heydər Əliyev tərəfindən irəli sürülən, Azərbaycan təhsilində mühüm əhəmiyyət kəsb edən Azərbaycan Respublikasının Təhsil sahəsində islahat proqramı XXI əsr Azərbaycan təhsilinin strategiyasını müəyyənləşdirmiş, modernləşməyə şərait yaratmışdır. Nəzərdə tutulan təhsilin məzmununun yeniləşdirilməsi, yeni proqramların, dərsliklərin, təhsil standartlarının hazırlanması, müasir təlim texnologiyalarından istifadə öz real həllini tapmışdır. Ümumi təhsil sistemində dərslik siyasətinin həyata keçiril-

məsinin yeni meyarları müəyyənləşdirilmiş, təhsilin məzmununda tələbyönümlülük, şəxsiyyətyönümlülük, nəticəyönümlülük, inteqrativlik istiqamətləri öz həllini tapmışdır.

9. Ümumi təhsil məktəbləri üçün pedaqoji kadr hazırlığı istiqamətində mühüm işlər həyata keçirilmiş, müəllimin peşəkarlıq səviyyəsinin yüksəldilməsinə və fəaliyyətinə qoyulan tələblər yeni mahiyyət və məzmun kəsb etmiş, onların pedaqoji-psixoloji, fənyönümlü bacarıqları xeyli təkmilləşdirilmiş, kommunikativ, didaktik qabiliyyətləri yüksəldilmişdir.

10.Ümumtəhsil sistemində yeni qiymətləndirmə konsepsiyasının hazırlanması təhsil sektorunun inkişafı layihəsində prioritet istiqamətlərindən birini təşkil etmişdir.

Tədqiqatın nəticələri ilə bağlı bir sıra təklif irəli sürmək olar:

1. Ölkədə ümumi təhsilin modern inkişafını əhatə edən kütləvi əsərlərin nəşrini artırmaq müəllimlər üçün faydalı ola bilər.

2. Ümumtəhsil məktəbində işləyəcək müəllimlərin ixtisas və peşə hazırlıqlarının müasir tələblərə uyğunlaşdırılmasına səy edilməlidir.

3. Pedaqoji təmayüllü ali məktəblərə qəbul zamanı abituriyentlərin qabiliyyət imtahanlarından keçirilməsi müəllimlik fəaliyyətinin keyfiyyətinə müsbət təsir göstərə bilər.

4. 2011-ci ildən başlayaraq dövlətin ümumtəhsilin yeni keyfiyyət mərhələsinə keçməsinə təkan verən proqram sənədləri qəbul edilmişdir. Ümumi təhsilin modernləşmə inkişafının dinamikasını nəzərə alaraq, yeni tədqiqat işlərinin hazırlanması elmi-nəzəri və praktik baxımdan əhəmiyyətli olar.

Tədqiqatın məzmunu çap olunmuş aşağıdakı elmi əsərlərdə öz əksini tapmışdır:

1. Müəllimin pedaqoji etikası // Azərbaycan Müəllimlər İnstitutu, Müəllim hazırlığının müasir problemləri Beynəlxalq Elmi Konfrans, Bakı, 28-29 oktyabr 2011-ci il, s.242-246

2. Müasir dövrdə müəllimin pedaqoji etikası / Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, Ümumi orta təhsilin müasir problemləri, Beynəlxalq Elmi konfrans, Naxçıvan, 24 noyabr 2012-ci il, s.249-250

3. Müəllin pedaqoji fəaliyyətində innovasiyadan istifadə / Azərbaycan Müəllimlər İnstitutu, Müəllim hazırlığının müasir problemləri: təhsildə elmi və texnoloji innosiyalar, II Beynəlxalq Elmi konfrans, Bakı, 26-28 noyabr 2012-ci il, s.221-222

4. Təlim prosesində interaktiv texnologiyalardan istifadənin

əhəmiyyəti / Azərbaycan Respublikası Təhsil Nazirliyi, Doktorantların və gənc tədqiqatçıların XVII Respublika Elmi Konfransı, Bakı, 2013-cü il, s.163-164

5. Azərbaycan Respublikasında ümumi təhsilin inkişafına dair ilk təşəbbüslər // Azərbaycan Dövlət Pedaqoji Universiteti, Pedaqoji Universitet Xəbərləri 4, Bakı, 2013, s.265-267

6. Azərbaycan Respublikasında ümumi təhsilin inkişafında QHT-lərin rolu // Bakı Slavyan Universiteti, Humanitar Elmlərin öyrənilməsinin aktual problemləri, Bakı, 2014, s.328-331

7. İnkluziv təhsil ümumi təhsilin bir sahəsi kimi / Azərbaycan Müəllimlər İnstitutu, Azərbaycanda inkluziv təhsilin tətbiqi problemləri və onların aradan qaldırılması yolları, Elmi-praktiki konfrans, Bakı, 2 may 2014, s.120-121

8. Ümumi təhsildə yeni keyfiyyət mərhələsinə keçid / Bakı Dövlət Universiteti, Ümummilli lider Heydər Əliyevin 91 illik yubileyinə həsr olunmuş Cəmiyyət və təhsilin inkişaf strategiyası, VI Respublika elmi-praktik konfrans, Bakı, 5 may 2014, s.265-267

9. Müəllim hazırlığında ənənəvi təlim metodları və müasir təlim texnologiyalarından istifadənin qarşılıqlı əlaqəsi / Azərbaycan Müəllimlər İnstitutu, Müəllim hazırlığının müasir problemləri: texnologiya, təhsil və inkişaf, III Beynəlxalq Elmi Konfrans, Bakı, 22-24 may 2014, s.203-204

10. Ümumi təhsilin modern inkişafında milli kurrikulumun yeri // Azərbaycan Müəllimlər İnstitutu, Xəbərlər 2, Bakı, 2014, s.79-83

11. Основные направления реформы общего образования в Азербайджанской Республике // Тольянского Государственного Университета, Вектор Науки №2(17) 2014, стр. 140-142

12. Ölkəmizdə ümumi təhsilin qanunvericilik əsasları // Azərbaycan Dövlət Pedaqoji Universiteti, Pedaqoji Universitet Xəbərləri №3, Bakı, 2014 s.331-334

13. Müstəqillik illərində Azərbaycanda ümumi təhsilin məzmununun yeniləşdirilməsi // Dil və ədəbyyat Beynəlxalq elmi-nəzəri jurnal 4(92), Bakı, 2014, s.267-268

14. Müstəqillik illərində Azərbaycanda ümumi təhsilin məzmununun təkmilləşdirilməsi sahəsində səylər // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 4, 55, 2014, s.34-38

15. Azərbaycan müstəqillik illərində pedaqoji kadr hazırlığı // Azərbaycan Müəllimlər İnstitutu, Xəbərlər 1, Bakı, 2015

16. 1991-2011-ci illərdə ümumi təhsil məktəblərində maddi texniki bazanın yaradılması və inkişafı / Azərbaycan Respublikası Təhsil Nazirliyi,

Doktorantların və gənc tədqiqatçıların XIX Respublika Elmi Konfransı, Bakı, 2015

17. Использование инновации как основное условие повышение эффективности учебного процесса // Науковий часопис Национального Педагогического университета имени М.П. Драгоманова, Киев серия 5, выпуск 49, 2014, стр.114-118

18. Müstəqillik illəri Azərbaycanın milli təhsil tarixinə uğurlu islahatlatlara başlanğıc illəri kimi /Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Dövlət Universiteti, Sosial Elmlər və Psixologiya fakültəsi, Pedaqogika kafedrası, Ümummilli lider Heydər Əliyevin 92 illik yubileyinə həsr olunmuş "Təhsilin inkişaf strategiyası və onun reallaşdırılması" mövzusunda VII Respublika elni-praktik konfrans, s.118-120

19. Azərbaycanda ümumi təhsilin məzmunun təkmilləşdrilməsində humanizm prinsipinin rolu // ARTİ nin Elmi əsərləri N5, Bakı, 2017, s. 58-61

20. Müstəqillik illərində Azərbaycan Respublikası ümumtəhsil məktəblərində yeni təlim texnologiyalarının tətbqi // Azərbaycan Dövlət Pedaqoji Universiteti, Ali məktəb müəllimlərinin I Forumu

**Х.А.Мамедова**

**МОДЕРН РАЗВИТИЕ ОБЩЕГО ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ (1991-2011 гг.)**


**Р Е З Ю М Е**

В диссертации говорится о результатах, полученных в связи обновлением и модернизацией общего образования в течении первых двадцати лет независимости Азербайджана. Диссертация состоит из введения, двух глав, выводов и списка использованной литературы.

В введении обоснована актуальность темы, раскрыты предмет, объект, цель, цели и методы исследования. Автор, проанализировав в связи с темой научно-методическую литературу, обобщил их и выразил к ним свое отношение.

Первая глава труда называется «Организация в стране общего образования после приобретения Азербайджанской Республикой независимости». В этой главе автор комментирует стороны, обуславливающие актуальность в обновляемом обществе, определяет законодательные основы развития общего образования, выявляет факты относительно роли Неправительственных организаций в развитии общего образования в условия строительства в Азербайджане гражданского общества.

II глава диссертации называется «Основные направления модерн развития общего образования». В этой главе комментируются вопросы перестройки и развития материально-технической базы школ, содержательное обновление общего образования и новшества при оценке. Также к изучению привлечены использование в образовании ИКТ, являющейся главным фактором обновления, вопросы воздействия на модернизацию современных методов и технологий обучения и обобщаются полученные результаты. Отдельное место отводится комментарию новых подходов в подготовке кадров для общеобразовательных школ.

В конце диссертации представлены общие итоги и предложения, вытекающие из исследования.

**Kh.A.Mammadova**

# MODERN DEVELOPMENT OF GENERAL EDUCATION IN THE REPUBLIC OF AZERBAIJAN (1991-2011)

## S U M M A R Y

The thesis talks about the results obtained from the renewal and modernization of general education during the first twenty years of Azerbaijan's independence. The thesis consists of an introduction, two chapters, conclusions and a list of used literature.

In the introduction, the relevance of the topic is substantiated, the subject, object, purpose, goals and methods of investigation are disclosed. The author, having analyzed scientific and methodical literature related to the topic, summarized them and expressed his attitude towards them.

The first chapter of the work is called "Organization of general education after the acquisition of independence by the Republic of Azerbaijan". In this chapter the author comments on the parties that determine the relevance of the renewed society, determines the legislative foundations for the development of general education, reveals facts about the role of non-governmental organizations in the development of general education in terms of the construction of a civil society in Azerbaijan.

The second chapter of the thesis is called "The main directions of the modern development of general education." This chapter is about the innovation and development of the consept of general education Also, the use of ICT in education, which is the main factor of renewal, the issues of the impact on the modernization of modern teaching methods and technologies, has been brought to the study and the results obtained are summarized. A separate place is given to the commentary on new approaches to the training of cadres for general education schools.

İn conclusion the general results and proposals arising from the research. are presented.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

---

*На правах рукописи*

**ХАЯЛЯ АРИФ КЫЗЫ МАМЕДОВА**

# МОДЕРН РАЗВИТИЕ ОБЩЕГО ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ (1991-2011 гг.)

**5804.01 – Общая педагогика, история педагогики и образования**

# АВТОРЕФЕРАТ

**диссертации на соискание ученой степени
доктора философии по педагогике**

**БАКУ – 2017**